**UOT 7.02**
**https://doi.org/10.52094/2221-7584.2025.37.186**

**Murad Bayramov Valeh oğlu**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**magistrant**
**bayramovmurad00@gmail.com**

# FƏRHAD HACIYEV AZƏRBAYCANDA BƏRPA SƏNƏTİNİN TƏŞƏKKÜLÜNDƏ ROLU

**Xülasə:** Məqalədə Azərbaycanda bərpa sənətinin tarixindən və bərpaçı Fərhad Hacıyevin fəaliyyətindən bəhs olunur. Fərhad Hacıyev bədii irsimizin qorunaraq gələcək nəsillərə ötürülməsində bərpa sənətinin vacib rol oynadığını bilirdi və gənc rəngkar XX əsrin ortalarında ölkəmizdə bu sənətin yaranmasının ilk təşəbbüskarı olmuşdur. Sənətin sirlərinə dərindən bilən F.Hacıyev bərpa etdiyi əsərlər hazırda dünyanın müxtəlif muzey və qalereyalarında mühafizə olunur. F.Hacıyevin böyük əmək, səbr və yüksək peşəkarlıqla bərpa etdiyi əsərlər xalqımızın maddi-mənəvi xəzinəsidir.

**Açar sözlər:** Fərhad Əliyev, Azərbaycan bərpa sənəti, sənət əsəri, bərpaçı, kolleksiya.

Professional bərpa sənəti şəxsi kolleksiyaların toplanması zamanı yaranmışdır. Təbii ki, tarixi erkən dövrlərə dayanan təsviri sənətin sahələri olan rəngkarlıq, qrafika, heykəltaraşlığın günümüzə kimi gəlib çatmış nümunələri qorunmalı və zədəli olanlar diqqətlə konservasiya və bərpa edilməlidir. Minilliklər, əsrlər sonra arxeoloji qazıntılar nəticəsində aşkar edilən qədim nümunələr iqlim şəraitinin və ya fiziki proseslərin nəticəsində orjinal vəziyyətlərini itirir. Bərpa haqqında ilkin məlumatlara orta əsrlərin tarixi mənbələrində də rast gəlinir. XVII-XVIII əsrlərdə isə ilk professional bərpaçılar haqqında məlumatlar dövrümüzədək gəlib çatmışdır. “Bərpa” sözü latınca “restauro”, yəni “bərpa edirəm” feilindən formalaşmışdır. Maddi və mənəvi mədəniyyətimizin xəzinəsi hesab olunan muzey kolleksiyaları fiziki, kimyəvi, bioloji, mexaniki və s. təsirlərə məruz qalır. Bu prosesin qarşısının alınması demək olar ki, mümkün deyil. Belə əsərlərin yenidən “həyata qaytarılması”nda bərpa sənətinin xüsusi rolu olduqca böyükdür. Müxtəlif proseslərin, mikroorqanizmaların və s. təsirinə məruz qalan incəsənət əsərlərinə bərpaçıların

ilkin və düzgün müdaxilə etməsi onların daha uzun müddət ekspozisiyada və ya fondlarda qorunmasına və sərgilənməsinə xidmət edəcəkdir.

Azərbaycanın bir çox muzeylərindı mühafizə edilən bir çox təsviri sənət nümunələri bərpaçı-rəssamlarımız tərəfindən bərpa edilərək öz orijinal xüsusiyyətlərini saxlaya bilmişdir. Qeyd etməliyik ki, müəllifi, yaranma yeri və bilinməyən bir çox təsviri sənət nümunələri məhz bərpaçı mütəxəssislərin ekspertizası sayəsində aşkar edilmişdir.

Bilirik ki, bərpaçı-rəssamlar iş prosesində hər bir incəsənət əsərə invidual yanaşaraq onları "zərgər dəqiqliyi" ilə işləyirlər. Rəngkarlıq əsərlərində də rəng qatını bərpa etmək üçün qoruyucu lakın və çirk təbəqəsinin təmizlənməsi yalnız sözün əsl mənasında sənət əsərlərini xilas edən bərpaçıların diqqətlə və həssaslıqla etdiyi işidir.

*"İncəsənət ekspertlərinin və bərpaçıların gərgin tədqiqatlarından sonra məşhur fransız rəssamı, Barbizon məktəbinin nümayəndəsi Jül Düprenin, rus impressionizminin banilərindən hesab olunan Konstantin Korovinin, polşalı rəssam Yan Stıkanın, holland natürmort ustası Piter Klasın əsəsrlərinin sirri açılmış şamaxılı sənətkar Məhəmmədkərimin (XVII) özündə qədim miniatür və Avropa rəngkarlığını birləşdirən əsərlərinin tarixçəsi aşkar edilmişdir".* [1, səh.17] Adları sadalanan bur rəssamların əsərlərinin Azərbaycanın yerli muzeyində olması əlbəttə ki, qürurvericidir. Bərpa sənəti maddi mədəniyyət abidələrinin məhv olmasının qarşısının alınmasına və onların uzunmüddətli qorunması üçün optimal şəraitin əldə edilməsi üçün tədbirlər kompleksidir. O cümlədən qədim tarixə malik olan və uzun zaman kəsiyində zədələnmiş əntiq əşyaların, incəsənət əsərinin və ya memarlıq abidələrinin ilkin görüntüsünə uyğun olaraq yenilənməsi və bərpa edilməsidir. Qeyd etməliyik ki, uzun zaman, düzgün olmayan şərait, təbii fəlakətlər, müharibələr və s. nəticəsində zədələnmiş və təhrif edilmiş tarixi, mədəniyyət və incəsənət abidələri diqqətlə və həssaslıqla bərpa edilməlidir.

Bildiyimiz kimi Azərbaycanda bərpa sənətinin tarixi Fərhad Hacıyevin (1929-1987) fəaliyyəti ilə bağlıdır. Belə ki, Fərhad Hacıyev bədii irsimizin qorunaraq gələcək nəsillərə ötürülməsində bərpa sənətinin vacib rol oynadığını bilirdi və gənc rəngkar XX əsrin ortalarında ölkəmizdə bu sənətin yaranmasının ilk təşəbbüskarı olmuşdur. Qeyd etməliyik ki, F.Hacıyev Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini (1945-1951-cı illər) bitirdikdən sonra Moskva şəhərində V.Surikov adına Dövlət Rəssamlıq İnstitutunda Ümumittifaq bərpaçılar kursunda (1954-1957-ci illərdə) İ.E.Qrabar başda olmaqla S.Çurakov, V.Filatov kimi məşhur bərpaçı rəssamlardan dərs almışdır. Sənətin

sirlərinə dərindən öyrənən F.Hacıyev hələ institutda təhsil alarkən 400-dən çox incəsənət əsərini bərpa və konservasiya etmişdir. Onun bərpa etdiyi həmin əsərlər hazırda dünyanın müxtəlif muzey və qalereyalarında mühafizə olunur.

Təhsilin tamamladıqdan sonra F.Hacıyev Bakıya qayıdaraq Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində fəaliyyətə göstərməyə başlayır. Qeyd etməliyik ki, o Azərbaycanda ilk bərpaçı-rəssam olmuşdur və onun fəaliyyətinə qədər muzeylərimizdə bu vəzifədə heç kim çalışmamışdı. Belə bir vəziyyətdə təbii olaraq, ölkəmizin bütün muzeylərində bərpaya və konservasiyaya ehtiyacı olan çox sayda əsər var idi. Buna görə də F.Hacıyevin Moskvada əldə etdiyi bilik və təcrübəyə böyük ehtiyac var idi.

Fərhad Hacıyev fəaliyyətə ilk öncə yox olmaq riski daşıyan səkkiz rəngkarlıq əsərindən biri olan Qərbi Avropa rəssamlıq məktəbinə aid olan "Monastr apteki" tablosu ilə başlayır. Müəllifi naməlum olan bu əsərin ölçüsü kiçik idi. Amma bərpaçı həmin əsər üzərində beş il müddətində böyük səbrlə işləyir. Beləliklə, uğurlu nəticə əldə edən F.Hacıyev əsərə ikinci həyat bəxş edərək sənətsevərlərin rəğbətini qazanır.

Bərpaçı-rəssam F.Hacıyev öz sənətinə günün-gündən sevgisi artırdı və bu fəaliyyətində peşəkarlaşmasına səbəb olurdu. O, biliyini artıraraq, professional vərdişləri üzərində daima çalışırdı. O cümlədən F.Hacıyev dünya bərpaçılıq sənətində baş verən yenilikləri, texnoloji nailiyyətləri yaxından izləyirdi. Bərpaçı-rəssam 1961-ci ildə SSRİ-nin Rəssamlar İttifaqının üzvü olur. O, həmçinin, bədii əsərlərin və əntiq əşyaların bərpa və konservasiya metodları, onların texnologiyası, ekspertizası, o cümlədən bərpa laboratoriyalarının təşkil edilməsi, peşəkar bərpaçı-rəssamların yetişdirilməsi kimi mədəni sərvətlərin mühafizəsinə dair mövzulara həsr olunmuş ümumittifaq və beynəlxalq konfransların, seminarların daimi iştirakçısı olmuşdur. Belə ki, bərpaçı 1963-cü ildə Sankt-Peterburqda UNESCO tərəfindən təşkil edilmiş beynəlxalq konfransda fəal iştirak edərək üç il sonra SSRİ Mədəniyyət Nazirliyinin Baş Təsviri Sənət İncəsənət İdarəsinin Attestasiya Komissiyası tərəfindən müvafiq qərarı ilə "ali dərəcəli bərpaçı-rəssam" adını almışdır. Bundan əlavə, Fərhad Hacıyev 1970-ci ildə UNESKO-nun nəzdində fəaliyyət göstərən İKOM beynəlxalq təşkilatının üzvü seçilmişdi.

F.Hacıyev muzeydə fəaliyyət göstərdiyi qısa zamanda 100-dən çox rəngkarlıq əsərini bərpa və konservasiya etmişdi. Həmin əsərlər arasında XVII əsrin Holland rəssamlarının tabloları, XVIII-XX əsrin görkəmli Azərbaycan rəssamlarından Əzim Əzimzadənin, Bəhruz bəy Kəngərlinin, Mir Möhsün Navvabın, Mircavad Mircavadovun, Tofiq Cavadovun, Toğrul

Nərimanbəyovun, Tahir Salahovun, Mikayıl Abdullayevin, o cümlədən rus rəssamlarından Andreyeviç Tropinin, Konstantin Korovinin, İvan Ayvazovskinin, Vladimir Borovikoskinin, Vasili Kandinskinin, Mark Şaqalın, Vasiliy Vereşaqinin, İlya Maşkovun, xarici rəssamlardan Andrea De Şartonun, Jül Düprenin və başqalarının əsərlərini yüksək peşəkarlıqla bərpa etmişdi. 1959-1960-cı illərdə F.Hacıyev ən uğurlu işlərindən biri olan İ.Brodskinin “Hacı Zeynalabdin Tağıyevin portreti”ni bərpa edir.

F.Hacıyevin bu uğurları nəticəsiz qalmır və Azərbaycan Dövlət İncəsənət Muzeyində Mərkəzi Bədii Bərpaçılıq Emalatxanası (1971-1980-ci illər) fəaliyyətə başlayır. Həmin emalatxananın fəaliyyət göstərməsi Azərbaycan bərpaçılıq sənətində atılmış vacib addımlardan olmuşdur. 1978-ci muzeydə 223 incəsənət nümunəsinin “həyata qaytarılması” ilə bağlı hesabat sərgisi keçirilir. Sərgilənən sənət əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyinin, Şirvanşahlar sarayı dövlət tarix-memarlıq muzeyi kompleksinin, Azərbaycan Dövlət Din Tarixi Muzeyinin, Azərbaycan Dövlət Tarix Muzeyinin və Məşədi Əzizbəyovun ev muzeyinin eksponatları idi. Bəhs edilən əsərləri müxtəlif mütəxəssislər bərpa etmişdilər, amma 170 əsərin bərpasını F.Hacıyev etmişdi.

İntim mənzərə təmsilçisi adlandırılan fransız rəssamı və Barbizon məktəbinin məşhur nümayəndəsi Jül Düprenin (1881-1889) “İnəklərlə mənzərə” əsəri bərpaçı rəssam Fərhad Hacıyev tərəfindən bərpa edilmişdi. Tamamilə çirk təbəqəsi ilə örtülmüş və təsvir görüntüsü itirmiş bu rəngkarlıq əsərini ilk başlarda müəyyən etmək o qədər də asan deyildi. Lakin peşəkar bərpaçı Fərhad Hacıyev təmasda olduğu əsər tanımaz halda olsa da onun dəyərindən xəbərdar idi və tabloya yeni nəfəs verməyə müvəffəq oldu.

1984-cü ildə Azərbaycan Milli İncəsənət Muzeyinin “Qərbi Avropa və rus incəsənəti şöbəsi”nin əməkdaşları tərəfindən aparılan tədqiqatların nəticəsində muzeyə Bakı kolleksiyaçısından alınmış iki əsərin Avropa rəssamı tərəfindən təsvir edildiyi müəyyənləşmişdir. Hər iki əsərin uzun illərdən ərzində doğru olmayan şəraitdə saxlanılması əsərin səthinə çəkilən qoruyucu maddənin üzərinə çirk hopmasına, eləcə də kətanın səthinin tündləşməsinə səbəb olmuşdu. Həmin əsərlərin bəzi hissələrində rəng qatı tamamilə tökülmüş, bir əsərin isə kətanı iki hissədən zədələnmişdi. Bu əsərlərdən “Meşə kənarında” (və ya “Otlaqda”) adlanan tablonun üzərində aydın görünməyən imza da var idi. İmzanın hansı rəssama aid olduğunun müəyyən edilməsi axtarışların istiqamətini təyin edərək bərpaçıları doğru yönləndirə bilərdi. Bu səbəbdən məsələni aydınlaşdırmaq üçün başda Muzey Sərvətləri və Xatirə Əşyalarının

Elmi Bərpa Mərkəzinin direktoru Fərhad Hacıyev olmaqla mütəxəssislərə müraciət edilir. Beləliklə, ultrabənövşəyi şüa vasitəsilə aparılan tədqiqat imzanı qoruyucu qat altında müəyyən etdi. Daha sonra Fərhad Hacıyev ardıcıl olaraq qaydalara riayət edərək ilk öncə təsvirin üzərini tündləşmiş təbəqədən, yəni çirkdən təmizləyir. Uzun müddət davam edən bu prosesin yekununda oxunması mümkün olmayan imza görünür. Nəticədə tablonun sol alt hissəsində fransız dilində "Düpre" imzası aydın görünür. Beləliklə, əsərin məşhur fransız rəssamı Jül Düpreyə aid olduğu aşkar edilir.

Qeyd edək ki, imzanın kimə aid olduğunun müəyyən olunması axtarışları bitirmir. Elmi tədqiqatşıları və bərpaçıları maraqlandıran digər məqam hər iki əsərdəki süjetin oxçarlığı və işləmə texnikası idi. Rəssamın palitrasına hakim olan yaşıl rəngin müxtəlif çalarları, səmadakı ağ və mavi tonların uyğunluğu, açıq sarı rəngin digır koloritlərlə harmoniyası hər iki əsərdə də gözə çarpırdı. İki əsərdə də bu oxşar cəhətlərin olması müəllifin eyni olma ehtimalını artırırdı. Bütün bu göstəricilər digər əsərdə imza olmasa belə onun müəllifinin fransız rəssamı Jül Düpre olduğunu söyləməyə imkan verirdi.

Bərpaçıların sənətşünaslarla birgə əməkdaşlığı sayəsindı araşdırma uğurla nəticələnir. Rəngkarlıq əsərlərinin rəssam Jül Düpreyə aid olması ilə Azərbaycan Dövlət İncəsənət Muzeyinin kolleksiyası zənginləşdi. Belə ki, Bakı keçmiş SSRİ-nin fransız rəssamının əsərlərinin nümayiş olunduğu bir neçə şəhərdən birinə çevrildi.

Peşəkar ekspert və bərpaçılarımız sayəsində bir çox rəngkarlıq əsərinin müəllifi aşkar edilmişdir. Məsələn, 1935-ci ildə Moskvanın A.S.Puşkin adına Dövlət İncəsənət Muzeyindən naməlum rəssamın işi kimi Bakıya göndərilən əsərin sirri illər sonra açılmışdı. 1991-ci ilə təsadüf edən bu hadisə zamanı əsərin kimliyi ortaya çıxdı. *"üzərində 1659-cu il, "yəni onun XVII əsrdə yaradıldığım göstərən" rəqəm olsa da, o vaxtlar onu tərəddüdsüz Azərbaycana göndəriblər. Bu o vaxtlar idi ki, müttəfiq resupblikalarda yaradılan yeni muzeyləri zənginləşdirmək üçün Moskva və Sankt-Peterburqun mərkəzi fondlarından onlara kömək göstərirdilər. Digər tərəfdən isə bu, əsərin müəllifinin məlum olmaması, yəni əsərin bir o qədər bu mənada əhəmiyyətli sayılmaması ilə əlaqədar idi. Əslində isə əsərin üzərində onun müəllifliyini müəyyənləşdirməyə imkan verə biləcək monoqrammanın əlamətləri vardı. Görünür, həmin imza-monoqrammanın vaxtilə Moskvada səhv oxunması, Bakıda isə ilk vaxtlar həmin "tədqiqata" sözsüz əməl olunması sonrakı axtarışlara marağı azaldıb, sözün əsl mənasında birdəfəlik dayandırıb. Ancaq aradan xeyli vaxt keçəndən sonra Bakıda onunla ciddi maraqlanıblar. Bu,*

*əsərin yüksək bədii məziyyəti, onun kompozisiya və atributlarının məşhur holland rəssamlarının əsərləri ilə səsləşməsi ilə bağlı idi. O vaxt sənətşünas axtarışlarından sonra ilk növbədə bərpaçılara müraciət olunub, çətin başa düşülən imzanın həqiqliyi yoxlanılıb".* [1, səh.17-18]

Çətinliklə başa düşülən imzanın hansı müəllifə aid olduğunu yenə görkəmli bərpaçı-rəssam Fərhad Hacıyev aşkar edir. Araşdırma zamanı monoqramma, yəni imza dəqiq oxunur. Bildiyimiz kimi imzanın oxunması ən vacib addımlardandır və növbəti axtarışların uğurlu nəticəsini təmin edir. Bəhs edilən əsərdə latın qrafikası ilə yazılan "P" və "K" hərflərinin bir-birinə dolaşmış formasını ilk baxışda təyin etmək olduqca çətin idi. Belə olan halda dünya incəsənətində, üslub baxımından əsasən holland rəngkarlığının rəssamlarının monoqrammaları öyrənilərək sözü gedən imza ilə müqayisə edilir. Daha sonra tədqiqat Sankt-Peterburq və Moskva şəhərlərində davam etdirildi. Nəhayət həmin imzanın holland səhər yeməyi natürmortlarının ustası Piter Klasa (1597-1661) məxsus olduğu müəyyən olundu. İmzanın Piter Klasa məxsus olduğu bir daha Sankt-Peterburqda yerləşən Dövlət Ermitajında, daha sonra A.S.Puşkin adına Moskva Dövlət İncəsənət Muzeyinin əməkdaşları tərəfindən təsdiqlənir. Həmin muzeylərin ekspozisiyalarındakı əsərlərdə də rəssam P.Klasın fərqli imzalarının olduğu natürmortlara rast gəlinir. Amma imza ilə yanaşı, natürmort ustasının yaradıcılıq üslubunun uyğunluğu bütün şüphələrin üstündən birdəfəlik xətt çəkir.

Qeyd etməliyik ki, "Harlem natürmort məktəbi"nin banisi Piter Klas əsərləri səhər yeməkləri və "vanitas" adlanan alleqorik natürmortlarından ibarətdir. Rəssamın Azərbaycan Dövlət İncəsənət Muzeyində bərpa edilən əsəri onun "səhər yeməkləri natürmortları" qrupuna aiddir. Həmin dövrdə P.Klasın əsərləri keçmiş SSRİ məkanında cəmi üç şəhərin, yəni Moskva, Sankt-Peterburq və Bakı şəhərlərinin muzeylərində saxlanılırdı.

Beləliklə, böyük əmək, səbr və yüksək peşəkarlıq tələb edən bərpaçılıq sənəti sayəsində xalqımızın maddi-mənəvi xəzinəsi, o cümlədən incəsənət tarixi yaşayır. Bu müqəddəs sənətin təmsilçiləri incəsənətimizin incilərinin gələcək nəsillərə ötürülməsində əvəzedilməz rol oynayırlar və tarixə unudulmaz imza atırlar.

## Ədəbiyyat siyahısı

1. Əliyev Z. Xilas olunmuş gözəllik //Bakı 2007. 64 səh.
2. Əliyeva F. Azərbaycan rəsm sənəti və bərpa texnikaları // Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. 2010. 256 səh.

3. Həsənova N. Azərbaycan rəsm əsərlərinin bərpasında müasir yanaşmalar // Bakı: Azərbaycan Dövlət İncəsənət Universiteti. 2018. 192 səh.
4. İsmayılov E. Rəsm sənətinin bərpası və konservasiya metodları // Bakı: İncəsənət Akademiyası. 2017. 208 səh.
5. Məmmədova S. Mədəni irsin qorunması və bərpası // Bakı: Mədəniyyət və Turizm Nazirliyi. 2015. 280 səh.
6. Quliyev R. (Müstəqillik dövründə Azərbaycan mədəniyyətinin qorunması // Bakı: Elm və Təhsil Nəşriyyatı. 2020. 320 səh.

**Мурад Байрамов**

## РОЛЬ ФАРХАДА ГАДЖИЕВА В СТАНОВЛЕНИИ РЕСТАВРАЦИОННОГО ИСКУССТВА В АЗЕРБАЙДЖАНЕ.

**Резюме:** В статье рассматривается история реставрационного искусства в Азербайджане и деятельность реставратора Фархада Гаджиева. Фархад Гаджиев знал, что реставрационное искусство играет важную роль в сохранении и передаче будущего поколениям нашего художественного наследия, и молодой художник был первым, кто инициировал создание этого искусства в нашей стране в середине XX века. Ф.Гаджиев, глубоко постигший тайны искусства, отреставрировал произведения, которые в настоящее время хранятся в различных музеях и галереях мира. Произведения, восстановленные Ф.Гаджиевым с большим трудом, терпением и высоким профессионализмом, являются материальным и духовным достоянием нашего народа.

***Ключевые слова:*** Фархад Алиев, азербайджанское реставрационное искусство, произведение искусства, реставратор, коллекция.

**Murad Bayramov**

## THE ROLE OF FARHAD HAJİYEV İN THE DEVELOPMENT OF RESTORATİON ART İN AZERBAİJAN.

**Summary:** The article discusses the history of restoration art in Azerbaijan and the activities of restorer Farhad Hajiyev. Farhad Hajiyev knew that restoration art plays an important role in preserving and transmitting our artistic heritage to future generations, and the young artist was the first to initiate the creation of this art in our country in the middle of the 20th century. F. Hajiyev, who deeply comprehended the secrets of art, restored works that are currently stored in various museums and galleries around the world. The works

restored by F. Hajiyev with great difficulty, patience and high professionalism are the material and spiritual heritage of our people.

***Key words:*** Farhad Aliyev, Azerbaijani restoration art, work of art, restorer, collection.